**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**GÜLANƏ İLQAR QIZI ƏLİYEVA**

# AZƏRBAYCAN ALBANİYASININ DÜZƏN QARABAĞDAKI ANTİK DÖVR ABİDƏLƏRİ

5505.02 – Arxeologiya

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI-2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya institutunun «Arxeoloji xidmət» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbərlər:** **Nəcəf Ələsgər oğlu Müseyibli**
*tarix üzrə elmlər doktoru*

**Qoşqar Oruc oğlu Qoşqarlı**
*tarix üzrə fəlsəfə doktoru*

**Rəsmi opponentlər:** **Hidayət Fərrux oğlu Cəfərov**
*tarix üzrə elmlər doktoru, professor*

**Emil Əlisahib oğlu İsgəndərov**
*tarix üzrə fəlsəfə doktoru*

**Aparıcı elmi müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin **«Ümumi tarix»** kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yaradılmış (5505.02 – “Arxeologiya”) dissertasiyaların müdafiəsini həyata keçirən F/D 01.171 Dissertasiya Şurasının “____” ________ 2018- ci il tarixli iclasında saat “____” da keçiriləcəkdir.

**Ünvan:** AZ1143, Bakı şəhəri, H. Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat “___” ________ 2018-ci ildə göndərilmişdir.

**F/D 01.171**
**Dissertasiya Şurasının** **Səfər Hüseyn oğlu Aşurov**
**Elmi katibi** *tarix üzrə fəlsəfə doktoru*

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dissertasiya işi Kür çayının sağ sahilində, Düzən Qarabağda yerləşən antik dövrə aid abidələrin öyrənilməsinə həsr olunmuşdur. Hazırda bu ərazi inzibati cəhətdən Azərbaycan Respublikasının yeddi rayonunu – Yevlax, Bərdə, Ağcabədi, Ağdam, Beyləqan, Füzuli və Tərtər rayonlarını əhatə edir. Antik dövrdə və Erkən Orta əsrlərdə isə Düzən Qarabağda Albaniyanın Uti, Arsax və Paytakaran əyalətləri yerləşirdi.

Əhəməni imperiyasının süqutundan sonra Azərbaycanın tarixi ərazilərində iki dövlət formalaşdı. Cənubda Atropatena, şimalda isə Albaniya dövləti yarandı. Yazılı mənbələr və arxeoloji abidələr e.ə. I minilliyin ikinci yarısında Albaniya ərazilərinin cənubda Araz çayından şimalda Böyük Qafqaz sıra dağlarının ətəklərinə kimi uzandığını, Kür çayının sol və sağ sahillərini (Kür və Araz çayları arasını), həmçinin Dağlıq və Düzən Qarabağı əhatə etdiyini müəyyənləşdirməyə imkan verir. Bu arealda Antik dövr alban mədəniyyətini səciyyələndirən çoxlu arxeoloji komplekslər cəmləşmişdir.

Təbii ki, qədim və ya Orta əsrlər dövrünün hər hansı bir dövləti kimi, Albaniyanın da antik dövr sərhədləri dəyişilməz deyildi. Bu və ya digər hərbi-siyasi hadisələrlə əlaqədar onun sərhədləri dəyişir, ərazisi gah genişlənir, gah da kiçilirdi. Bu, ilk növbədə Ellinizm dövründə və Son Antik dövrdə Cənubi Qafqaz, o cümlədən Albaniya ərazilərinin o dövrün Roma və Parfiya kimi böyük və qüdrətli dövlətlərinin işğalçılıq planlarına daxil olması ilə bağlı idi. Buna görə də Qafqaz Albaniyasının sərhədləri məsələsi bu gün də, xüsusilə, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları kontekstində müzakirə mövzusu olaraq qalır. Başqa sözlə, əgər Albaniyanın şimal sərhədləri sırf elmi tədqiqat obyektidirsə, Dağlıq Qarabağ problemi ilə əlaqədar olaraq onun cənub sərhədləri məsələsi hazırda, xüsusilə, son onilliklərin erməni tarixi və arxeoloji ədəbiyyatında ifrat dərəcədə siyasiləşdirilmişdir. Azərbaycan albanşünaslıq ədəbiyyatında, daha dəqiq desək, Z.N.Bünyadov, İ.H.Əliyev, F.C.Məmmədova, T.M.Məmmədov və bir sıra digər müəlliflərin əsərlərində erməni tədqiqatçılarının qərəzli və saxtakar mövqeyi elmi cəhətdən əsaslandırılmış şəkildə təkzib olunmuşdur.

Hazırkı tədqiqatda biz Düzən Qarabağın Antik dövr maddi mədəniyyətinin Kür çayından şimalda yerləşən və ayrı-ayrı vaxtlarda araşdırılmış həmdövr alban abidələri ilə müqayisəli təhlilinə əsaslanıb onların vahid bir ümumalban mədəniyyətinin tərkib hissəsi olduğunu göstərməyə çalışmışıq. Mövzunun elmi aktuallığı da elə buradan irəli gəlir. Qeyd etmək lazımdır ki, Kür çayının sol sahili ilə müqayisədə sağ sahili ərazilərində yerləşən alban abidələri zəif tədqiq olunub və bu bölgənin Antik dövr abidələri haqqında ümumiləşdirici əsərlər yoxdur.

Beləliklə, bəhs olunan bölgədəki Antik dövr abidələrinin tədqiqinin aktuallığı onunla müəyyən edilir ki, Kür çayının sağ sahilində, xüsusilə, Düzən Qarabağda yerləşən abidələrin kompleks şəkildə öyrənilməsi onların sol sahildəki alban abidələri ilə oxşar olduğunu göstərir və maddi mədəniyyət baxımından bu bölgənin tarixən Qafqaz – Azərbaycan Albaniyasına məxsusluğunu təsdiq edir.

**Tədqiqatın öyrənilmə səviyyəsi**. Albaniyanın Qarabağ ərazisindəki mühüm yaşayış yerləri və qəbir abidələri hələ XIX əsrin sonlarında tədqiqatçıların diqqətini cəlb etmişdir. S.Veysenqof XIX əsrin 80-ci illərində ilk dəfə olaraq Mil-Qarabağ düzünün abidələri haqqında məlumat toplamışdır. Şuşa real məktəbinin müəllimi E.Resler XIX əsrin 90-cı illərində Şuşa, Xocalı və Xankəndi də daxil olmaqla, Azərbaycanın bir çox yerlərində, o cümlədən Düzən Qarabağda qazıntı işləri aparmışdır. Sonralar həmin bölgədə arxeoloji tədqiqatlar 1896-cı ildə A.A.İvanovski, 1927-ci ildə Ə.H.Ələkbərov, 1933-cü ildə İ.İ.Meşaninov, 1936-cı ildə İ.P.Şeblıkin tərəfindən araşdırılmışdır.

1953-1960-ci illərdə A.A.İessenin rəhbərliyi ilə Örənqala ekspedisiyası Azərbaycanın bir çox rayonlarında, o cümlədən Mil-Qarabağ düzündə genişmiqyaslı arxeoloji tədqiqatlar həyata keçirmişdir. Düzən Qarabağ abidələrinin tədqiqində Q.M.Əhmədov, Ö.Ş.İsmizadə, R.B.Göyüşov, R.M.Vahidov, İ.H.Nərimanov, Q.S.İsmayılzadə, H.F.Cəfərov, A.B.Nuriyev, F.L.Osmanov, İ.A.Babayev, A.M.Məmmədov, T.R.Əliyev və digər alimlər böyük töhfə vermişlər.

Düzən Qarabağda aparılan araşdırmalar göstərir ki, Antik dövrdə Kürün sağ sahili əraziləri sıx məskunlaşmış, kənd və şəhər tipli yaşayış yerləri ilə zəngin olmuşdur. Demək olar ki, hər bir

yaşayış məntəqəsi yaxınlığında onlarla sinxron olan qəbiristanlıqlar yerləşmişdir. Tədqiqatçıların qeyd etdiyi kimi, Düzən Qarabağın, demək olar ki, bütün ərazilərində alban dövrünə aid maddi mədəniyyət izlərinə rast gəlinir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Təqdim olunan işin məqsədi Kür çayından sağ tərəfdə, Düzən Qarabağda yerləşən Antik dövrə aid abidələri tədqiqata cəlb etməkdən, yaşayış məskənləri və qəbiristanlıqlardan aşkar olunmuş arxeoloji materialların təhlilini və şərhini verməklə onların Kürün sol sahilindəki maddi mədəniyyət abidələri ilə tam eynilik təşkil etməsini göstərməkdən ibarətdir.

Dissertasiya işi yazılarkən müəllif aşağıdakı konkret vəzifələri həll etməyə çalışmışdır:

- Düzən Qarabağ ərazisinin tarixi-coğrafi şəraitini xarakterizə etmək;
- Düzən Qarabağın arxeoloji cəhətdən öyrənilmə səviyyəsini müəyyən etmək;
- Albaniyanın Düzən Qarabağ ərazisində yerləşən Antik dövr abidələrinin ümumi və lokal xüsusiyyətlərini göstərmək;
- Arxeoloji materialların təhlili əsasında Antik dövrdə Albaniya əhalisinin mədəni-təsərrüfat həyatını səciyyələndirmək;
- Kürün sağ və sol sahili ərazilərində vahid alban mədəniyyəti və ənənələrinin mövcudluğunu müəyyənləşdirmək.

**Tədqiqatın tarixşünaslığı və mənbəşünaslıq bazası.** Dissertasiya üzərində iş aparılarkən Azərbaycan, Rusiya və Qərb tarixçilərinin çoxsaylı əsərləri, eləcə də Mil-Qarabağ arxeoloji ekspedisiyasının elmi hesabatları ətraflı şəkildə təhlil olunmuşdur. Bunlarla yanaşı, mənbələrdən, xüsusilə Strabon, Plutarx, Böyük Plini kimi antik müəlliflərin əsərlərindən istifadə edilmişdir. Albaniyanın sosial-iqtisadi həyatı ilə bağlı bəzi məsələlərin işıqlandırılmasında alban tarixçisi Musa Kalankatlının «Alban tarixi» əsəri də böyük əhəmiyyət kəsb edir.

Dissertasiya işi yazılarkən Albaniya tarixi ilə bağlı ilk ümumiləşdirici əsər kimi K.V.Treverin «Qafqaz Albaniyasının tarixi və mədəniyyətinə dair oçerklər (e.ə. IV – b.e.-nın VIII əsrləri)» adlı əsərinə xüsusi diqqət yetirilmişdir. Bu kitabda Albaniyanın bütün tarixi boyu – yazılı mənbələrin şahidliyinə görə onun e.ə. IV əsrdə ilk dəfə tarix səhnəsinə çıxmasından eramızın VIII əsrinin

əvvəllərində ərəblər tərəfindən süquta yetirilməsinə qədərki dövrdə iqtisadi, siyasi və mədəni həyatı əks olunmuşdur.

Z.İ.Yampolskinin «Qədim Albaniya e.ə. III-I əsrlərdə» adlı monoqrafiyasında Albaniya tarixinin müxtəlif problemlərinə toxunulur.

V.İ.Leviatovun yazılı mənbələrin verdiyi məlumatlar və qismən arxeoloji materiallar əsasında yazdığı «Azərbaycan e.ə. V – b.e.-nın VII əsrlərində» adlı əsərində Albaniya tarixinin bir sıra sosial-iqtisadi məsələlərini işıqlandırmağa çalışmışdır.

Albaniya tarixi üzrə ümumiləşdirici əsərlər arasında K.H.Əliyevin «Qafqaz Albaniyası» adlı monoqrafiyasını da qeyd etmək olar. Əsər onun Antik dövrə aid bu və ya digər məsələlər haqqında oxşar mənbələrin araşdırıldığı «Antik Qafqaz Albaniyası» kitabı əsasında yazılmışdır. Müəllif bu əsərdə e.ə. I – b.e.-nın I əsrləri arasındakı dövrdə Albaniyanın sərhədləri, əhalisi, təsərrüfatı, ticarət əlaqələri və mənəvi mədəniyyətinin tədqiqinə xüsusi yer ayırmışdır. K.H.Əliyevin «Azərbaycan tarixinə dair antik mənbələr» adlı digər bir əsərində isə antik müəlliflər və onların əsərləri, yunan və latın müəlliflərinin qədim Azərbaycan (Atropatena və Qafqaz Albaniyası) haqqında məlumatları yer almışdır.

F.C.Məmmədovanın «Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası» adlı əsərində antik və orta əsr mənbələrinə əsasən Albaniyanın ərazisi və sərhədləri araşdırılır, şəhərlər lokallaşdırılır və ölkənin siyasi-inzibati bölgüsü şərh olunur. Əsərdə Albaniyanın siyasi tarixinə və iqtisadi həyatına, eləcə də dövlət dininə geniş yer ayrılmışdır.

Albaniyanın antik dünya ilə iqtisadi, ticarət və mədəni əlaqələrinin öyrənilməsində M.M.Rəsulovanın «Qafqaz Albaniyasının antik və ellinizm dünyası ilə ticarət-iqtisadi və mədəni əlaqələri: e.ə. IV əsr - b.e. III əsri» adlı monoqrafiyası böyük əhəmiyyət kəsb edir. Əsərin əsasən arxeoloji və numizmatik materiallar əsasında yazılması ona xüsusi dəyər verir.

Albaniyanın Antik dövr tarixinin öyrənilməsində prof. C.Ə.Xəlilovun «Qafqaz Albaniyasının maddi mədəniyyəti» adlı fundamental monoqrafiyası böyük əhəmiyyət kəsb edir. Tədqiqatçı bu əsərində Albaniyanın maddi irsinə daxil olan və müxtəlif abidələrdən əldə edilən arxeoloji materialları toplayıb ümumiləşdirmişdir. Müəllif Albaniya şəhərlərində ayrı-ayrı

sənətkarlıq sahələrinin yaranması və inkişafı, şəhər həyatı, ölkə ərazisində maddi mədəniyyətin vəhdəti kimi mühüm problemləri araşdırmışdır.

İ.A.Babayevin «Qafqaz Albaniyasının şəhərləri» adlı kitabı da əhəmiyyətli nəşrlər sırasındadır. Müəllif mövcud arxeoloji materiallar əsasında alban şəhərinin mahiyyəti, quruluşu, topoqrafiyası, tikinti xüsusiyyətləri, eləcə də şəhərin iqtisadi həyatı məsələlərini tədqiqata cəlb edir. Qeyd olunan əsərdə tədqiqatçı araşdırma zamanı çıxardığı nəticələri ümumiləşdirmişdir. Bu nəticələr, bir sıra hallarda, Antik dövr alban mədəniyyətinin gələcək tədqiqatları üçün istinad nöqtəsi olmuşdur.

Albaniyanın tarixi ilə bağlı ən samballı tədqiqat işlərindən biri F.L.Osmanovun «Qafqaz Albaniyasının tarixi və mədəniyyəti» adlı monoqrafiyasıdır. Burada müəllif tədqiqat üsulu kimi yazılı mənbələrlə arxeoloji qazıntı materiallarını müqayisəli şəkildə təhlil etmişdir. Öz nəticələrində F.L. Osmanov 40 ildən artıq müddətdə apardığı arxeoloji qazıntılardan əldə etdiyi çoxsaylı faktiki materiallara, o cümlədən digər albanşünasların tədqiqatlarına əsaslanmışdır.

Milli albanşünaslıq elminin inkişafına S.M.Qazıyev, Ö.Ş.İsmizadə, İ.H.Əliyev, V.H.Əliyev, A.Ə.Qaraəhmədova, Ə.Ə.Əliyev və başqaları da öz əsərləri ilə böyük töhfə vermişlər. Son illər Albaniya tarixinə dair ümumiləşdirici və mühüm əsərlərdən biri də Q.O.Qoşqarlının 2012-ci ildə nəşr olunan «Azərbaycan ərazisində Antik dövr qəbir abidələrinin tipologiyası» adlı monoqrafiyasıdır. Burada Qafqaz Albaniyası ərazisindəki dəfn abidələrinin bütün növləri ətraflı təhlil olunur.

**Tədqiqatın xronoloji çərçivəsi** b.e.ə. V-IV əsrlərdən başlayaraq b.e.-nın III əsrinə qədərki bütün Antik dövrü əhatə edir. Lakin tədqiq etdiyimiz bəzi arxeoloji abidələrin çoxtəbəqəli olmasını nəzərə alaraq həm əvvəlki dövr, həm də Erkən Orta əsrlər tarixinə dair bəzi qeydlər aparmağa ehtiyac yaranmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Mövzunun elmi yeniliyi və əhəmiyyəti onun predmeti ilə müəyyən edilir. Tarixi-arxeoloji ədəbiyyatda ilk dəfə olaraq Qafqaz Albaniyasının Düzən Qarabağdakı Antik dövr abidələri kompleks halda araşdırılıb müstəqil dissertasiya işi kimi təqdim olunur, şəhər və kənd tipli yaşayış yerlərinin səciyyəvi xüsusiyyətləri göstərilir. Tədqiqatda

təkcə hər bir nekropola daxil olan qəbirlər ümumiləşdirilmir, həm də onlar Düzən Qarabağın digər oxşar qəbir abidələri ilə müqayisə olunur. Dissertasiyada dövr etibarilə eyni olan bir qəbiristanlıqda müxtəlif tipli məzarlara rast gəlinməsinin də elmi şərhi verilir.

Təqdim edilən əsərdə Qalatəpə, Qaratəpə, Qurdtəpə, Şortəpə, Qaraköpəktəpə, Töyrətəpə, Uzərliktəpə, Təzəkənd kimi yaşayış məskənləri, eləcə də Töyrətəpə, Qalatəpə, Qaraköbər, Qiyaməddinli, Govurqala, Yaldili kimi qəbir abidələri əsasında tipoloji xüsusiyyətləri müəyyən edilməklə Düzən Qarabağ ərazisindəki abidələrin kompleks təhlilinə ilk dəfə cəhd göstərilmişdir.

**Tədqiqatın metodik və nəzəri əsasını** yerli və əcnəbi mütəxəssislərin əsərləri, müasir tarix elminin tarixilik, obyektivlik, sistemlilik kimi əsas prinsipləri, tədqiq olunan problemlərə onların qarşılıqlı əlaqə və inkişafı baxımından yanaşılması, həmçinin tarixi faktların hərtərəfli təhlili və obyektiv qiymətləndirilməsi təşkil edir.

Əsərin yazılması zamanı mənbəşünaslıq, tarixi, tarixi-tipoloji və tarixi-arxeoloji tədqiqat üsulları tətbiq edilmişdir. Hazırkı işin əhatə etdiyi dövrlə bağlı proses və hadisələrin öyrənilməsi gedişində müqayisəli tarixi üsuldan istifadə olunmuşdur. Bu üsulun tətbiqi milli albanşünaslığın inkişafı kontekstində Qarabağ abidələrinin öyrənilmə tarixinin müxtəlif mərhələlərini müqayisə etməyə, elmi mülahizə və təhlillər əsasında tarixi ümumiləşdirmələr aparmağa imkan yaratmışdı.

**Tədqiqatın elmi-praktiki əhəmiyyəti.** Dissertasiya işinin müddəa və nəticələrindən Azərbaycanın, o cümlədən Qarabağ bölgəsinin Antik dövr tarixi və arxeologiyası üzrə ümumiləşdirici əsərlərin yazılmasında, muzey ekspozisiyalarının təşkilində, ekskursiya proqramlarının hazırlanmasında, «arxeologiya» ixtisası üzrə mühazirə kursları və seminarların aparılmasında istifadə etmək mümkündür.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun «Arxeoloji xidmət» şöbəsində hazırlanmış, «Antik dövr arxeologiyası», «Erkən orta əsrlər arxeologiyası» və «Orta əsrlər arxeologiyası» şöbələrinin birgə iclaslarında müzakirə olunmuş və müdafiəyə buraxılmışdır.

Əsas nəticələr və iddialar 2011-2017-ci illərdə müəllif tərəfindən beynəlxalq elmi konfranslardakı çıxışlarda açıqlanıb, Azərbaycanda və xaricdə nəşr olunan elmi məqalələrdə işıqlandırılıb.

**Dissertasiyanın quruluşu.** İş giriş, üç fəsil, nəticə, ədəbiyyat siyahısı, ixtisarların siyahısı və illüstrativ materiallardan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **girişində** tədqiqatın aktuallığı əsaslandırılır, məqsəd və vəzifələri müəyyən edilir, metodik prinsipləri göstərilir. Burada mövzunun öyrənilmə dərəcəsi nəzərdən keçirilir, işin elmi yeniliyi və praktiki əhəmiyyəti, dissertasiyanın mənbəşünaslıq bazası və quruluşu xarakterizə olunur.

Dissertasiyanın iki yarımfəsildən ibarət olan birinci fəsli **«Düzən Qarabağın Antik dövr abidələrinin öyrənilmə tarixi»** adlanır.

**«Düzən-Qarabağın tarixi-coğrafi icmalı. Mənbələr və tarixşünaslıq»** adlanan birinci yarımfəsildə öyrənilən ərazinin qısa təsviri verilir və mənbələr nəzərdən keçirilir.

Təbii-coğrafi şəraitinə görə Qarabağ tarixən bir-birilə sıx bağlı olan iki hissədən – düzən və dağlıq hissələrdən ibarət olmuşdur. Dağlıq Qarabağ Qafqazda, eləcə bütün Avrasiya məkanında antropogen proseslərin getdiyi ən qədim ocaqlardan biridir. Elm aləminə yaxşı məlum olan Alt Paleolit dövrünə aid Azıx və Orta Paleolit dövrünə - Mustye mədəniyyətinə aid Tağlar mağara düşərgələri məhz burada aşkar olunmuş və tədqiq edilmişdir. Düzən Qarabağ isə tarixən bütün Qafqazda istehsal təsərrüfatının formalaşdığı və inkişaf etdiyi mərkəzlərdən biri olmuşdur. Bunu həmin ərazidə tədqiq edilmiş bir sıra Son Neolit və Eneolit dövrü yaşayış məskənləri təsdiq edir. Erkən Tunc, Orta Tunc, eləcə də Son tunc və Erkən Dəmir dövrünə aid çoxsaylı yaşayış məskənləri, qəbir abidələri, o cümlədən kurqanlar göstərir ki, Tunc dövründən başlayaraq Qarabağ ərazisi bütövlükdə yerli tayfalar tərəfindən intensiv şəkildə mənimsənilmişdir.

Müxtəlif minerallarla zəngin olan Kiçik Qafqaz qədim Qarabağda metallurgiyanın inkişafı üçün ən əhəmiyyətli xammal bazası idi. Əhəngdaşı, mərmər, qranit və s. kimi daşlar, müxtəlif gil növləri, geniş meşə massivləri bu regionda dulusçuluğun, ağac

emalının və daşyonma sənətinin inkişafına imkan yaradırdı. Tarixi Azərbaycan torpaqlarının şimal hissəsində Albaniya dövlətinin formalaşdığı Antik dövrdə Qarabağ inkişaf etmiş əkinçilik və yaylaq maldarlığı mərkəzi, həmçinin bir çox sənətkarlıq sahələri üçün xammal bazası olaraq qalırdı.

Bir sıra qədim müəllifin, xüsusilə Strabonun verdiyi məlumatlardan aydın olur ki, Antik dövrdə Qarabağ bölgəsində kaspi, uti, qarqar və digər alban tayfaları yaşamışdır. Bu tayfaların məskən saldıqları ərazi Uti, Arsax və Paytakaran vilayətlərinin tərkibinə daxil idi. V-VIII əsrlərə aid erməni və alban yazılı mənbələrinə görə bu vilayətlər albanlara məxsus idi və Albaniya ərazisi cənubda Araz çayına qədər uzanırdı. Mənbələri (o cümlədən erməni mənbələrini) təhlil edən F.C.Məmmədova qeyd edir ki, Albaniyanın ərazisi həm Antik dövrdə, həm də Erkən Orta əsrlərdə eyni hüdudlarda olmuşdur: şimalda Dərbənddən cənubda Araz çayına qədər, qərbdə İberiyadan şərqdə Xəzər dənizinə qədər.

E.ə. VI əsrin sonlarından başlayaraq antik müəlliflər gələcək Albaniyanın ərazisində yaşayan tayfalar haqqında məlumatlar verirlər. Yunan alimi Miletli Hekatey onların arasında birinci olmuşdur. Sonralar Herodot özünün «Tarix» əsərində Əhəmənilər imperiyasından bəhs edərkən on birinci satraplığın – canişinliyin ərazisində yaşayan kaspi tayfasının adını çəkmişdir. Ptolemeyin əsərində Albaniyanın 29 yaşayış məntəqəsinin adı sadalanır. Strabon isə özünün «Coğrafiya» əsərində ilk dəfə olaraq Albaniyaya ayrıca fəsil həsr etmişdir.

Yazılı mənbələrdə, xüsusilə yunan və latın müəlliflərinin əsərlərində Qarabağın düzənlik hissəsindəki yaşayış məskənləri haqqında verilən məlumatlar əsasən natamam olub ayrı-ayrı parçalardan ibarətdir. Onların təhlili tədqiqata cəlb olunan hazırkı problemin həlli üçün yetərli deyil. Bu baxımdan, Albaniya ərazisindəki Antik dövr abidələrinin arxeoloji tədqiqi mühüm əhəmiyyət kəsb edir. Düzən Qarabağda aparılan tədqiqatlar göstərir ki, bəhs olunan dövrdə Kürün sağ sahili əraziləri sıx məskunlaşmışdı, burada kənd və şəhər tipli bir çox yaşayış məntəqələri, onlarla həmdövr qəbiristanlıqlar mövcud olmuşdur.

**"Düzən Qarabağdakı Antik dövr yaşayış məskənləri və qəbir abidələrinin öyrənilmə tarixi"** adlı ikinci yarımfəsildə Azərbaycan ərazisində, xüsusilə Düzən Qarabağda aparılan mühüm

arxeoloji qazıntılar haqqında məlumat verilmişdir. XIX əsrin ikinci yarısından başlayaraq Düzən Qarabağ ərazisində kəşfiyyat işləri və arxeoloji qazıntılar aparılmış, onlarla yaşayış məskəni və qəbiristanlıq aşkar edilmişdir.

XIX əsrin 90-cı illərində E.Resler Qarqarçayın sağ sahilində, Qalatəpə ətrafında kəşfiyyat işləri apararkən küp qəbirlərinə rast gəlmişdir.

1896-cı ildə Moskva İmperator Arxeoloji Cəmiyyətinin tapşırığı ilə məşhur arxeoloq A.A.İvanovski Yelizavetpol quberniyasına göndərilmişdir. Araşdırmalar zamanı o, 70-dən çox qədim qəbir aşkar etmiş və qiymətli maddi-mədəniyyət nümunələri toplamışdı. İndiki Füzuli rayonu ərazisində yerləşən çoxtəbəqəli Qaraköpəktəpə abidəsi tədqiqatçının diqqətini xüsusilə cəlb etmişdi.

1927-ci ildə Ə.H.Ələkbərov Mil düzündə, Govurarxın sahilində və Qalatəpənin yaxınlığında bir neçə küp qəbir tədqiq etmiş, 1933-cü ildə akademik İ.İ.Meşaninov, 1936-cı ildə İ.P.Şeblıkin bu ərazidəki abidələrdə (Qalatəpə, Örənqala, Təzəkənd) arxeoloji tədqiqatlar aparmışlar.

Azərbaycanda arxeologiya elminin inkişafında Örənqala ekspedisiyası mühüm rol oynamışdır. Q.A.Feyzullayev 1954-cü ilin payızında A.A.İessenin rəhbərliyi altında Qaratəpə (Beyləqan) yaşayış yerində qazıntılar aparmışdır. 1955-1958-ci illərdə Ö.Ş.İsmizadə burada qazıntıları davam etdirmişdir. Qaratəpədə stasionar qazıntılarla yanaşı, Örənqala ekspedisiyasının Ağdam dəstəsi tərəfindən Ağdam şəhəri yaxınlığındakı Üzərliktəpədə də qazıntı işləri getmişdir. Burada qeydə alınan e.ə. III-I əsrlərə aid qəbiristanlıq qədim Üzərliktəpə abidəsinin ərazisində salınmışdır.

1957-ci ildə Q.M.Əhmədov tərəfindən Beyləqan rayonundakı Təzəkənd təpəsində mədəni təbəqənin stratiqrafiyasını müəyyənləşdirmək məqsədi ilə kəşfiyyat şurfu qoyulmuşdur. Aşkarlanan materiallar əsasında o, müəyyən etmişdir ki, bu yaşayış yeri iki eranın qovşağında meydana gəlmiş və b.e.-nın V-VII əsrlərinə qədər mövcud olmuşdur. Q.M.Əhmədovun ehtimalına görə, Təzəkənd Qaratəpənin davamı, Örənqaladan isə əvvəlki çağa aid yaşayış məskəni idi.

1958-ci ilin may ayında Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun arxeoloji ekspedisiyası R.M.Vahidovun rəhbərliyi altında Ağdam rayonu ərazisində yerləşən çoxtəbəqəli Govurqala

şəhər yerinin  tədqiqinə başlamışdı. Uzun müddət davam edən araşdırmalar nəticəsində abidənin stratiqrafiyası müəyyən edilmiş və aydın olmuşdur ki, Son Antik dövrdə Govurqala ərazisində meydana gələn şəhər Azərbaycanın ən böyük yaşayış məntəqələrindən biri kimi IX-X əsrlərə qədər mövcud olmuşdur. 1969-cu ildən başlayaraq professor R.B.Göyüşov Govurqala şəhər yerində arxeoloji tədqiqat işlərini davam etdirmişdir. Nəticədə şəhərin Antik dövrə aid bir hissəsi və şəhərin nekropolu açılaraq tədqiq olunmuşdur. Hazırda Qarabağın yüzlərlə digər abidələri kimi Govurqala da erməni silahlı qüvvələrinin işğalı altındadır.

1965-ci ildə Q.S.İsmayılzadənin rəhbərliyi ilə Füzuli rayonu ərazisindəki Qaraköpəktəpə abidəsində stasionar tədqiqat işlərinə başlanılmışdır. İyirmi ilə yaxın davam edən tədqiqatlar zamanı burada Antik dövr də daxil olmaqla İlk Tunc dövründən Erkən Orta əsrlərədək ardıcıl həyatın izləri aşkara çıxarılmışdır.

1974-cü ildə F.L.Osmanov tərəfindən Ağcabədi rayonunun Üzeyirkənd kəndi ətrafında Qaraköbər adlı yerdə qədim yaşayış məskəni və küp qəbirlər qeydə alınmış, ilkin tədqiqatlar aparılmışdır. Həmin il F.L.Osmanov Qaraköbər yaxınlığındakı Qalatəpə şəhər yerində də kəşfiyyat qazıntı işləri aparmış, Antik və Erkən Orta əsrlərə aid keramika nümunələri toplamışdır.

1978-ci ildə M.M.Hüseynov ilk dəfə olaraq Bərdə rayonunun Şatırlı kəndində yerləşən Şortəpə yaşayış yeri haqqında məlumat vermişdir. Tədqiqat zamanı o, vulkanik küldən hazırlanmış medalyon şəkilli bir qadın fiquru aşkar etmiş və şərti olaraq onu "ilahə Nüşabə" adlandırmışdır. Bu abidədən və ətraf ərazilərdən əldə olunan Makedoniyalı İskəndərə, selevkilərə, arşakilərə, eləcə də Roma imperatoru Avqusta aid sikkələr antik Bərdənin ellinizm dövrü ölkələri ilə mədəni-iqtisadi və  ticarət əlaqələrini göstərir. Sonralar F.L.Osmanov və İ.A.Babayev Şortəpədə qısamüddətli araşdırmalar aparmışlar. Hazırda isə A.M.Məmmədov bu abidədə tədqiqatları davam etdirir. Qazıntılar zamanı Şortəpədən Mil düzünün, xüsusilə də Ağcabədi rayonu ərazisindəki Antik dövr abidələrinin keramikasına bənzər çoxlu saxsı qablara, bəzək əşyalarına və digər maddi mədəniyyət nümunələrinə rast gəlinmişdir.

1979-cu ildə H.F.Cəfərov tərəfindən Beyləqan rayonundakı Qaratəpə abidəsində qazıntı işləri aparılmışdı. Yaşayış məskəninin şimal hissəsinin dağılması nəticəsində Antik dövrə aid iki böyük daş

sütün altlığının aşkar edilməsi bu abidədə arxeoloji tədqiqatların bərpasına təkan vermişdir.

2004-2005-ci illərdə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Cənubi Qafqaz Bakı-Tbilisi-Ərzurum qaz kəməri boyunca aparılan arxeoloji qazıntılar nəticəsində müxtəlif tarixi dövrlərə aid abidələr, o cümlədən küp qəbirlərdən ibarət 6 nekropol (Nərimankənd, Yaldili və b.) aşkar olunmuş və tədqiq edilmişdir.

2008-ci ildə T.R.Əliyevin rəhbərlik etdiyi Mil-Qarabağ arxeoloji ekspedisiyası çoxtəbəqəli Qalatəpə yaşayış yerində qazıntı işlərinə başlamışdı. İlkin tədqiqatlar abidənin 0,7 m qalınlığında olan üst təbəqəsinin Orta əsrlərə (IX-XIII əsrlər), aşağı qatdakı təbəqələrin isə Antik və Erkən Orta əsrlərə aid olduğunu göstərmişdir.

2013-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu Xocavənd rayonunda kəşfiyyat işləri aparmaq məqsədilə Nərgiztəpə arxeoloji dəstəsini təşkil etmişdi. Son illərdə aparılan tədqiqatlar onu göstərdi ki, bu abidə, əsasən, üç mədəni təbəqədən ibarətdir: Son Tunc – Erkən Dəmir dövrü, Antik dövr və Orta əsrlər.

Dissertasiyanın ikinci fəsli **«Düzən Qarabağın Antik dövr abidələrinin xarakteristikası»** adlanır. Bu fəsil hər biri iki hissəyə ayrılan iki yarımfəsildən ibarətdir.

**«Yaşayış yerləri»** adlanan birinci yarımfəsildə Düzən Qarabağ ərazisində yerləşən şəhər və kənd tipli yaşayış məskənlərinin ətraflı təhlili verilir.

**Şəhər tipli məskənlərə** – mütəşəkkil təsərrüfat, mədəni-siyasi və inzibati funksiyaları yerinə yetirən sıx məskunlaşmış yaşayış məntəqələri daxildir. Kənd tipli yaşayış məskənlərinə isə əhalisi, əsasən, təsərrüfat fəaliyyətində əkinçilik və maldarlıqla, eləcə də əmtəə xarakterli olmayan, yalnız şəxsi ehtiyacları ödəmək məqsədi daşıyan kiçik sənətkarlıq istehsalı, xüsusilə də dulusçuluq, toxuculuq və dəmirçilik sənəti ilə məşğul olan kiçik yaşayış yerləri aiddir.

Yaşayış məskənləri salınarkən bölgənin əlverişli iqlimi, təbii-coğrafi şəraiti nəzərə alınırdı. Onlar, bir qayda olaraq, şirin su mənbələrinin yaxınlığında, ayrı-ayrı təpələr üzərində yerləşirdi. Ərazinin strateji mövqeyi də əhəmiyyət kəsb edirdi. Kiçik məskənlər tədricən şəhərlərə çevrilərkən, ətrafları torpaq sədlər və xəndəklərlə

möhkəmləndirilirdi. Bəzi hallarda isə məskənin təhlükəsizliyini daha da artırmaq məqsədilə müdafiə divarları daşdan inşa edilirdi.

Bir sıra antik müəlliflərin əsərlərində çoxsaylı alban yaşayış məskənlərinin adları çəkilir. Lakin, yuxarıda qeyd edildiyi kimi, bu məlumatlar çox zaman natamam səciyyə daşıyır. Məsələn, Böyük Plininin b.e.-nın I əsrində yazdığı «Təbii tarix» əsərində Albaniya şəhərləri haqqında qeydə rast gəlinir. Lakin Plini bütün yaşayış məskənləri arasında yalnız Qəbələnin adını xatırladıb qeyd edir ki, Albaniyanın əsas şəhəri Kabalakadır.

Qədim yunan coğrafiyaşünası Klavdi Ptolemeyin «Coğrafiya dərsliyi»ndə Qafqaz Albaniyasının şəhərləri haqqında daha dolğun məlumat verilir. Həmin əsərdə Albaniyanın 29 yaşayış məntəqəsi haqqında dəyərli məlumatlar vardır.

Aparılan arxeoloji tədqiqatlar Azərbaycan ərazisində müxtəlif dövrlərə aid çoxsaylı abidələrin olmasını təsdiq edir. Bu, ölkədə yaşayış məskənlərinin formalaşması üçün zəruri olan hər cür şəraitin olması ilə bağlı idi. Albaniyanın Kür çayından sağda və ya cənubda yerləşən əraziləri də yerli tayfalar tərəfindən sıx məskunlaşmışdı. Burada onlarla yaşayış məskəni və nekropol qeydə alınmışdır. Onların arasında Qalatəpə, Töyrətəpə, Təzəkənd, Şortəpə, Qaraköpəktəpə, Govurqala kimi bir sıra şəhər tipli yaşayış məskənləri də vardır.

Kürün hər iki sahilinin ortaq mədəniyyətə malik olmasını Antik dövr məskənləri üçün xarakterik olan daş sütun altlıqları da göstərir. Belə ki, bizim araşdırma apardığımız Düzən Qarabağda – Ağcabədi (Qalatəpə, Qurdtəpə), Beyləqan (Təzəkənd, Qaratəpə), Ağdam (Boyəhmədli) və Bərdə (Şatırlı) rayonlarının ərazisində bəhs olunan tikinti qalıqlarına tez-tez təsadüf edilir. Oxşar sütun altlıqları Azərbaycanın digər yerlərindən – Qəbələ (Çaqqallı), Şamaxı (Xınıslı), Şəmkir (Qurbantəpə) və Qazax (Sarıtəpə) abidələrindən də aşkar edilmişdir.

Düzən Qarabağ ərazisindəki **kənd tipli yaşayış yerləri** əsasən, çay yataqları yaxınlığında, alçaq – çox da hündür olmayan təpələr üzərində yerləşir.

Tədqiq olunan abidələrin qazıntısı zamanı daş və sümük, saxsı, şüşə və metal əşyalarla yanaşı, yaşayış evlərinin qalıqları, təsərrüfat quyuları, təndiri və ocaq yerləri olan həyətlər aşkara çıxarılmışdır.

Belə kənd tipli yaşayış məskənlərindən biri Beyləqan rayonu ərazisindəki çoxtəbəqəli Qaratəpə abidəsidir.

Ağcabədi rayonundakı Qurdtəpə və demək olar ki, dağılmış vəziyyətdə olan Qaraköbər, eləcə də Xocavənd rayonundakı Nərgiztəpə də kənd tipli yaşayış yerləri sırasına daxildir. Qaratəpədə olduğu kimi, Qurdtəpə və Nərgiztəpə yaşayış məskənlərində də Antik dövr təbəqəsi üzərində Orta əsrlərə aid mədəni təbəqə vardır.

İkinci fəslin «**Qəbiristanlıqlar**» adlanan ikinci yarımfəslində Kür çayının sağ sahilində – Düzən Qarabağdakı torpaq və küp qəbirlərin şərhi verilir, onların Kür çayından şimalda yerləşən oxşar alban abidələri ilə müqayisəli təhlili aparılır.

Düzən Qarabağdakı şəhər və kənd tipli yaşayış məskənlərinin öyrənilməsi qəbir abidələrinin tədqiqi ilə tamamlanır və zənginləşir. Bu isə Qarabağın Antik dövr tarixini, maddi və mənəvi mədəniyyətini bərpa etməyə kömək edir.

Arxeoloqlar quruluşuna görə Azərbaycanın Antik dövr qəbir abidələrini bir neçə əsas növə ayırırlar. C.Ə.Xəlilov Albaniyanın bəhs olunan dövrü üçün yeddi qəbir növünün olduğunu qeyd edir: torpaq, quyu, vanna, küp, çiy kərpic, taxta qutu və katakomba. İlk dəfə Qafqaz Albaniyasının bütün Antik dövr qəbir abidələrini sistemləşdirib ümumiləşdirən Q.O.Qoşqarlı yuxarıda göstərilən sıraya daş qutu qəbirləri də əlavə etməklə qəbirlərin səkkiz növünün olmasını qeyd edir.

Araşdırmalar göstərir ki, tədqiq olunan dövrdə Düzən Qarabağ ərazisində torpaq və küp qəbirlərdə dəfn adəti üstünlük təşkil etmişdir. Daş qutu qəbirlər Govurqala (Ağdam) və Qaraköpəktəpə (Füzuli) qəbiristanlıqlarında qeydə alınmışdır.

**Torpaq qəbirlərdə** əsasən, bir nəfər dəfn olunurdu. Belə qəbirlərin içərisində skeletlər üç vəziyyətdə yerləşirdi: 1) arxası üstə uzadılmış; 2) azca bükülmüş; 3) çox bükülmüş. Belə dəfnetmə əlamətləri Düzən Qarabağın qəbir abidələri üçün səciyyəvidir. Yuxarıda qeyd edildiyi kimi, Antik dövrdə bu ərazidə torpaq və küp qəbirlərdə dəfnetmə adəti üstünlük təşkil etmişdir. Tədqiq olunmuş qəbiristanlıqlar sırasına Qalatəpə, Qaraköbər, Töyrətəpə, Qiyaməddinli və digər nekropolları aid etmək olar. Qalatəpə nekropolunda torpaq qəbirlərlə yanaşı (№ 1-3), küp qəbirlər də aşkar edilmişdir (№ 1-14). Belə qarışıq dəfn adətinə Mingəçevir, Qəbələ, Şəki, Yevlax və Ağdaşda da rast gəlinmişdir.

Qalatəpənin torpaq qəbirlərinin müqayisəli təhlili həmin nekropolda vahid dəfn adətinin olmadığını göstərir.

1955-1956-cı illərdə Ağdam rayonundakı Üzərliktəpə abidəsində Antik dövrə aid 13 ədəd torpaq və küp qəbir aşkar edilmişdir. Burada küp qəbirlərdə uşaqlar, torpaq qəbirlərdə isə böyüklər dəfn olunmuşdur. Bu hal uşaq və böyüklər üçün müxtəlif dəfn adətlərinin olmasına işarədir.

Bu günə qədər tarixi Qafqaz Albaniyası ərazilərində küp qəbirlərdən ibarət yüzdən çox qəbiristanlıq qeydə alınmışdır. Bu dəfn adətinin meydana gəlməsi, yayılması və s. haqqında çoxsaylı elmi ədəbiyyat mövcuddur. Bizim tədqiq etdiyimiz bölgəyə gəlincə, qeyd etmək lazımdır ki, Qarabağ ərazisindəki küp qəbirlər haqqında ilk məlumat Qalatəpə (Ağcabədi) və Qarabulaq (Xankəndi) nekropollarını aşkar etmiş Şuşa real məktəbinin müəllimi E.Reslerə məxsusdur.

Sonkarı illərdə küp qəbirlərinin öyrənilməsi ilə Ə.H.Ələkbərov, Y.A.Paxomov, Y.İ.Hümmel, S.M.Qazıyev, T.S.Passek və başqaları məşğul olmuşlar. Q.O.Qoşqarlı özünün «Azərbaycan ərazisində antik dövr qəbir abidələrinin tipologiyası» adlı əsərində Azərbaycan ərazisindəki küp qəbirlərinin yayılma xəritəsini vermişdir.

F.L.Osmanov tərəfindən Ağcabədi rayonunda tədqiq olunmuş Qaraköbər küp qəbirləri (e.ə. V-IV əsrlər) təkcə Düzən Qarabağda deyil, həm də bütün Azərbaycan ərazisində ən qədim küp qəbirləri hesab olunur. Arxeoloji qazıntılar nəticəsində burada 25 küp qəbir aşkara çıxarılmışdır. Onların da əksər hissəsi təsərrüfat işləri zamanı tam və ya qismən dağıdılmışdır. 1 №-li qəbir Qaraköbərin şimal-qərb hissəsində yer səthindən 0,5 m dərinlikdə aşkar edilmişdir. Dəfn küpü üfüqi istiqamətdə yerləşdirilmişdir. Ağız hissəsi cənub-şərq istiqamətinə yönəlmiş, oturacağa yaxın hissədə diametri 13 sm olan dairəvi dəlik açılmışdır. Buna bənzər küp qəbirlərə həm Azərbaycan, həm də Gürcüstan ərazisində dəfələrlə rast gəlinmişdir. Məsələn, Ağcabədi rayonunun Yeni Qaradolaq kəndi yaxınlığındakı nekropolda dağıdılmış bir qəbirin təmizlənməsi zamanı belə küpə təsadüf olunmuşdur. Dəfn küpündə dəliyin mövcud olması dini ayinlə bağlı olub «ruhun çıxışı» anlamını verə bilər. Ə.H.Ələkbərovun fikrincə, dəfn küpündə dəliyin açılması təsadüfi xarakter daşıya və ya hər hansı bir texniki məqsədlə bağlı ola bilərdi.

Başqa bir fikir də var ki, dəfn küplərindəki dəliklər əməli rol oynamış, qəbirin içərisinə yığılan yeraltı suların çıxışı üçün açılmışdır.

Qalatəpə antik şəhər məskəninə məxsus qəbiristanlığın ümümi sahəsi 5 ha-a yaxındır. Hələlik nekropolun 170 kv. m-ə yaxın sahəsi qazılmış, nəticə etibarilə 3 torpaq və 14 küp qəbir açılaraq tədqiq olunmuşdur. Şəhər tipli məskənlərin nekropolları üçün səciyyəvi olan belə müxtəliflik qədim şəhərlərin polietnik tərkibi ilə əlaqədardır. Qalatəpə nekropolundan aşkar edilən bütün küp qəbirlər (№1-14) haqqında verilən məlumat dissertasiya işində öz əksini tapmışdır. Məzarlığın geniş sahəni əhatə etməsi onun uzunmüddət fəaliyyət göstərməsindən və şəhər əhalisinin çoxsaylı olmasından xəbər verir. Bu isə öz növbəsində, Qalatəpə şəhər məskəninin Qafqaz Albaniyasının ən mühüm şəhərlərindən birinin qalığı olduğunu göstərir.

Dissertasiyada, həmçinin Yevlax rayonunun Köbər, Nərimankənd və Yaldili kəndləri yaxınlığında, Ağdam rayonunda Üzərliktəpə, Bərdə rayonunun Şatırlı kəndi yaxınlığında Şortəpə məzarlıqlarındakı küp qəbirlərin tədqiqi zamanı əldə olunan nəticələr də şərh edilmişdir.

Tədqiqatın **«Arxeoloji materialların təhlili»** adlanan üçüncü fəslində Albaniyanın Kürün sağ sahili ərazilərində – Düzən Qarabağda yerləşən Antik dövr yaşayış məskənləri və qəbir abidələrindən əldə olunmuş maddi mədəniyyət nümunələrinin müqayisəli təhlili verilmişdir. Bu fəsil altı yarımfəsildən ibarətdir: əmək alətləri, silahlar, şüşə məmulatı, bəzək əşyaları, sikkələr və keramika məmulatı.

Digər arxeoloji materiallarla müqayisədə Düzən Qarabağın Antik dövr abidələrindən **əmək alətləri** az tapılmışdır. Onlar əsasən, daş və metaldan hazırlanmışlar. Bəhs olunan dövrdə ağacdan düzəldilmiş alətlərin də olmasını ehtimal etmək olar. Lakin belə alətlər günümüzə qədər gəlib çıxmamışdır. Erkən çağlarda olduğu kimi, bəhs olunan dövrdə də əmək alətlərinin əksər hissəsini müxtəlif cins daşlardan düzəldilən alətlər təşkil etmişdir. Dən daşları, həvəng dəstləri, üzüm əzən daşlar, sürtgəclər və s. onların sırasındadır. İstehsal prosesində sümükdən hazırlanmış əmək alətləri xüsusi yer tuturdu. Nərgiztəpə yaşayış yerinin Antik dövr təbəqəsindən əldə edilən belə alətlər xırda və iri buynuzlu heyvanların sümüklərindən

hazırlanmış qaşovlardan, kəsici, deşici və s. alətlərdən ibarətdir. İki müxtəlif funksiya daşıyan (məsələn, uclarından biz və qaşov kimi istifadə olunan) sümük alətə də rast gəlinir.

**Silah** nümunələri Düzən Qarabağın tədqiq olunmuş məzarlıqlarının əksəriyyətindən aşkar edilmişdir. Bu əsasən, dəmir qılınclar, xəncərlər, nizə və ox ucluqlarıdır. Ümumiyyətlə, silahlar uzaqvuran, hücum və müdafiə xarakterli olmaqla üç növə bölünür. Uzaqvuran silahlara ox və kaman aiddir. Oxların metal ucluqları formasına görə çox vaxt iki və ya üçqanadlı olurlar. Qalatəpə nekropolundan 3,5 sm uzunluğa malik dəmir ox ucluğu tapılmışdır. Oxşar ox ucluqlarına Mingəçevir, Qəbələ, Xınıslı, Torpaqqala və d. yerlərdən rast gəlinmişdir. Qalatəpə nekropolunun 10, 11 və 13 saylı küp qəbirlərindən oxşar, lakin müxtəlif ölçülü dəmir nizə ucluqlarına da təsadüf olunmuşdur. Qeyd edək ki, çoxsaylı yazılı mənbələr albanları hərb sənətini mənimsəmiş döyüşkən xalq kimi səciyyələndirir.

Düzən Qarabağın Antik dövr abidələrindən aşkar edilən arxeoloji materiallar arasında **şüşə məmulatı** da vardır. Qafqaz Albaniyasına aid abidələrdən tapılan şüşə qablar forma və funksiyasına görə beş əsas qrupa bölünür – dərman və ya ətriyyat qabları olan balzamarilər, flaкonlar, qədəhlər, küpə və camlar. Onların arasından gövdəsinin formasına görə üç yerə bölünən (damcı, yarımkürə və yumurta şəkilli) balzamarilər sayca üstünlük təşkil edirlər. Bu qrupa daxil olan nümunələrin içərisində Qalatəpə nekropolunda küp qəbirdən tapılan üfürmə üsulu ilə nəfis şəkildə hazırlanmış balzamari xüsusilə diqqəti cəlb edir. Alimlərin (C.Ə.Xəlilov, İ.A.Babayev, A.B.Nuriyev və b.) fikrincə, Qafqaz Albaniyasında b.e.-nın III əsrinə qədər şüşə məmulatı yalnız Yaxın Şərq ölkələrindən gətirilirdi. Düzən Qarabağın abidələrindən, xüsusilə də məzarlıqlarından aşkarlanan şüşə məmulatının mühüm bir hissəsinin iki era arasına aid edilmə faktını nəzərə alsaq, onları da Antik dövrə aid idxal məhsulu hesab etmək olar.

Düzən Qarabağın Antik dövr abidələrində aparılan arxeoloji qazıntılar zamanı **bəzək əşyalarına** kütləvi şəkildə rast gəlinir. Onlar öz formalarına, təyinatına və hazırlanma üsullarına görə fərqlənirlər. Bəzək əşyaları bəzi hallarda dövrü dəqiq bildirən material rolunu oynayır, arxeoloji abidənin xronologiyasını müəyyən etməyə imkan yaradır.

Düzən Qarabağın küp və torpaq qəbirlərindən (Qalatəpə, Şortəpə və b.) məlum olan bəzək əşyaları, xüsusilə də heyvan və quş formasında tunc sırğalar, zınqırovlar, bilərziklər, möhür-üzüklər, sancaqlar və s. Mingəçevir, Qəbələ və Şamaxının həmdövr materialları ilə oxşarlıq təşkil edir.

Bəzək əşyalarının təsnifatı baş, boyun-sinə, əl, ayaq və paltar bəzək əşyaları kimi əsas dəstləri müəyyən etməyə imkan yaradır, onların zənginliyini, tipoloji cəhətdən müxtəlifliyini, bədii dəyərini və hazırlanma texnologiyasını göstərir. Bu əşyaların böyük əksəriyyəti kütləvi olub yerli materiallardan hazırlanmışdır. Bununla belə, tədqiqatlar göstərir ki, ənənəvi bəzək əşyaları dəyişməz qalmamış, müəyyən tarixi dövrdə ayrı-ayrı bəzək əşyası istifadədən çıxmış, əvəzində yeniləri meydana gəlmişdir.

Arxeoloji tədqiqatlar Azərbaycan ərazisində geniş **pul dövriyyəsinin** olduğunu göstərir. Bərdə, Xınıslı, Qəbələ və b. yerlərdən Makedoniyalı İsgəndərin adına kəsilmiş sikkələrə təsadüf edilmişdir. Sonralar gətirilmə pulların kifayət etməməsi Albaniyada yerli sikkə zərbinin zəruriliyini ortaya çıxarmışdır.

Tapılan çoxsaylı dəfinələr, ayrı-ayrı metal pullar Albaniyada daxili və xarici ticarətin, pul dövriyyəsinin yüksək inkişafından xəbər verir. E.ə. I əsrin birinci yarısında Albaniyada Selevki sikkələrinin yerli nüsxələrinə Roma respublikasının dinariləri də əlavə olunmuşdur. Azərbaycanda Roma sikkələrinə böyük dəfinə halında rast gəlinmir. Yalnız Təzəkənd şəhər yerindən Oktavian Avqustun dinarilərindən ibarət dəfinə aşkar eilmişdir. E.ə.I əsrin ortalarından Albaniyada Roma sikkələrinin sayı artmağa başlayır və bu axın b.e.-nın III əsrinin ortalarınadək davam edir. Roma metal pullarına Düzən Qarabağın qəbir abidələrində də rast gəlinir. Məsələn, Antik dövrə aid Qalatəpə nekropolundan oxşar nümunəyə təsadüf olunmuşdur.

Zəngin **keramika məmulatı** Düzən Qarabağın maddi mədəniyyətinin bütövlükdə Qafqaz Albaniyasının maddi irsinə daxil olduğunu göstərir və bu mədəniyyətin vahidliyini təsdiq edir. Məsələn, Ağcabədi rayonunun Yeni Qaradolaq kəndinin yaxınlığındakı nekropoldan aşkar edilən oynoxoya tipli qab Albaniyada keramika istehsalının "vizit kartı" sayılan Yaloylutəpə tipli qablara aiddir. Başqa sözlə, belə qablara Kürün sol sahili abidələrindən də rast gəlinir. Bu isə vahid alban mədəniyyətinin formalaşmasına daha bir işarədir.

Qırmızı boyalı saxsı qabların ilk nümunələri Ə.H.Ələkbərov tərəfindən Mil düzündəki Qalatəpə abidəsində qeydə alınmışdır. Qaraköpəktəpə və Şortəpənin qəbir abidələrindən də oxşar qablar tapılmışdır. Onlar naxışlarına görə Mingəçevirin küp qəbirlərindən məlum olan qablara bənzəyir. Qalatəpənin saxsı qabları gözəl naxışlarla bəzədilmişdir. Onların arasında Düzən Qarabağın abidələrinə məxsus spesifik naxışlar da vardır. Bunlar əsasən, paralel, şaquli, üfüqi, dalğavari xət və zolaqlardan, ziqzaq, üçbucaq və tağvari naxışlardan ibarətdir.

Qafqaz Albaniyasının ellinizm dövrü abidələri üçün monoxrom boyalı keramika məmulatı səciyyəvidir. Bu dövrdə açıq-qırmızı, tünd-sarı, açıq-qəhvəyi və narıncı gildən hazırlanan saxsı qablar qəhvəyi və tünd-qırmızı boya ilə naxışlanırdı. Naxış həm keramikanın, həm də anqob astarının üzərinə çəkilirdi.

Keramika məhsullarının müqayisəli təhlili bəzi ümumiləşdirmələr aparmağa imkan verir. Əksər hallarda keramika lokal xarakter daşıyıb yerli mədəniyyət elementlərini özündə əks etdirir və qonşu bölgələrin mədəni təsirini müəyyənləşdirməkdə mühüm rol oynayır. Araşdırmalar göstərir ki, Albaniyanın bütün tarixi ərzində dulusçuluq məmulatının növlərində və istehsalında heç vaxt sabitlik olmamışdır. Ölkənin mərkəzi vilayətlərində dulusçuluğun inkişaf səviyyəsi ucqarlara nisbətən daha yüksək idi. B.e.-nın II-III əsrlərindən etibarən saxsı qabların istehsalında müəyyən dəyişikliklər müşahidə edilir. Bəzi növ məmulatlar istifadədən çıxır, sərhəd zonalarında isə qonşu mədəniyyətlərin təsiri güclənir.

Qafqaz Albaniyasının Düzən Qarabağ ərazisindəki Antik dövr abidələrindən aşkar olunan arxeoloji materiallar alban tayfalarının maddi və mənəvi mədəniyyət sahəsindəki bir sıra məsələlərinin həllində əhəmiyyətli rol oynayır. Artefaktların təhlili zamanı, həm bütün Qafqaz Albaniyası ərazisi üçün səciyyəvi olan ümumalban elementləri, həm də spesifik yerli cizgilər aydın izlənilir.

Məlum olduğu kimi, müxtəlif xalqların mədəniyyəti ilə çulğalaşan ellinizm mədəniyyəti bir çox ölkələrə mədəni təsir göstərmiş, uzun müddət hakim mövqeyini qoruyub saxlamışdır. Bu qədər zəngin mədəniyyət izlərinin Azərbaycanda da olması təəccüblü deyildir.

Kütləvi arxeoloji materiallar göstərir ki, Kür çayının həm sağ, həm də sol sahilindəki yaşayış yerləri və qəbir abidələrindən əldə olunan saxsı, şüşə və metal məmulatı, həmçinin bəzək əşyaları, demək olar ki, oxşardır. Bütün bunlar şimalda Cənubi Dağıstandan, cənubda Araz çayınadək tarixi Albaniya ərazilərində vahid mədəniyyətin mövcud olduğunu söyləməyə əsas verir.

Düzən Qarabağ ərazisindəki Antik dövrə aid şəhərlərin, yaşayış yerlərinin və qəbir abidələrinin kompleks şəkildə öyrənilməsi alban cəmiyyətinin maddi və mənəvi mədəniyyətinin bərpasına kömək edir. Arxeoloji qazıntılar nəticəsində əldə edilən materialların təhlili əsasında, Antik dövr Albaniyasının şəhər və kəndlərinin iqtisadi həyatını, eləcə də onu əhatə edən dünya ilə əlaqələrini müəyyən etmək mümkündür.

Dissertasiyanın **nəticə** hissəsində aparılan tədqiqatlara yekun vurulur. Kürün sağ sahilində yerləşən arxeoloji abidələrin öyrənilməsi və onların Kürün sol sahindəki abidələrlə müqayisəli təhlili nəticəsində kifayət qədər ortaq xüsusiyyətlər üzə çıxarılmışdır. Kompleks halda həyata keçırılən bu araşdırmalar bilavasitə maddi tapıntılar əsasında Qarabağın tarixən Azərbaycan Albaniyasının ayrılmaz tərkib hissəsi olduğunu subut edir.

Düzən Qarabağın Antik dövr yaşayış məskənlərini nəzərdən keçirərkən belə bir nəticəyə gəlmək olur ki, onlar, xüsusilə şəhər tipli məntəqələr, şəhərsalma prinsipləri və memarlıq üslubuna görə Kür çayının sol sahilində yerləşən alban şəhərləri ilə bənzərlik təşkil edir. Məsələn, Qalatəpənin Antik dövr divarlarının inşasında istifadə edilmiş tikinti materialı, hörgü prinsipləri və digər xüsusiyyətlər qədim Şamaxı, Qəbələ, Xaçmaz rayonu ərazisindəki Canaxır və b. abidələr üçün də səciyyəvidir. Bu isə tədqiq olunan dövrdə Kürün sağ və sol sahili ərazilərində vahid alban şəhərsalma mədəniyyətinin formalaşdığını bir daha təsdiq edir.

Arxeoloji materialların təhlili Antik dövr alban şəhərlərinin gündəlik həyatını canlandırmağa imkan verir. Zəngin artefaktlar (müxtəlif metal pul nümunələri, zərif gil qablar, bəzək əşyaları və s.) bu şəhərlərin inkişaf etmiş pul dövriyyəsinə məxsus inzibati, ticarət və sənətkarlıq mərkəzləri olduğunu göstərir. Albaniya şəhərlərində dulusçuluq, metallurgiya və metalişləmə, zərgərlik, şüşə emalı, həmçinin toxuculuq və dəri emalı kimi sənətkarlıq sahələri inkişaf etmişdi. Bu yüksəlişdə Albaniya ərazisindən keçən ticarət yolları da

əhəmiyyətli rol oynayırdı. Kür çayı üzərindəki su yolu həmin yollardan biri idi.

Tədqiqat nəticəsində Düzən Qarabağ ərazisindəki Antik dövr abidələrinin ümumi və lokal xüsusiyyətlərini müəyyən etmək, başqa ölkələrin, xüsusilə yunan-Roma aləminin əmtəə-pul, iqtisadi və ticarət əlaqələri vasitəsilə Albaniyanın iqtisadi və siyasi həyatına təsirini izləmək, faktiki materiallar əsasında qədim Albaniyanın bütövlükdə mədəni-təsərrüfat həyatını bərpa etmək mümkün olmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1. Об археологических исследованиях античного памятника Галатепе // Tarix və onun problemləri. Bakı, 2012, № 2, s. 190-193.
2. About Ancient Settlements of Lowland Karabagh / Azərbaycanın qədim şəhər mədəniyyəti dünya urbanizasiya kontekstində. Beynəlxalq konfransın tezisləri. Qəbələ, 6-10 noyabr 2012, s. 94-95.
3. Qalatəpə antik alban şəhər məskəni və nekropolunda tədqiqatlar (Ağcabədi rayonu) / Azərbaycanda arxeoloji tədqiqatlar (2011). Bakı, 2012, s. 226-234. (müştərək).
4. Qalatəpədə aparılan arxeoloji tədqiqatlar haqqında /Azərbaycanda arxeoloji tədqiqatlar (2012). Bakı, 2013, s. 202-207. (müştərək).
5. Античные албанские поселения Карабаха //Azərbaycan Arxeologiyası, 2013, cild 16, №1, с. 88-100.
6. Qalatəpə antik nekropolunda aşkar olunan tunc bəzək əşyaları // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 2014, №1, s. 96-107.
7. Грунтовые погребения Низменного Карабаха по материалам некрополя Галатепе / Научная дискуссия: Вопросы социологии, политологии, философии, истории. Москва, 21 октябрь 2014, с. 25-30.
8. Кувшинные погребения некрополя Галатепе // Научный вестник Гилея, выпуск 91 (№12). Киев, 2014, с. 169-173.
9. Особенности обряда захоронения в кувшинных погребениях в Низменном Карабахе / III International

Scientific Conference of Young Researchers proceedings, 2nd Book, Baku, 17-18 April, 2015, s. 1430-1431.
10. Об античных бронзовых колокольчиках Галатепе / Актуальные проблемы исторических наук (археология). Киев, 9-10 октября, 2015, с. 6-9.
11. Nərgiztəpədə ilkin arxeoloji tədqiqatlar //Azərbaycan Arxeologiyası, 2015, cild 18, №1, s. 67-75. (müştərək).
12. О некоторых античных Албанских поселениях в оккупированных территориях Азербайджана / Proceedings of the XVII International Academic Congress “History, Problems and Prospects of Development of Modern Civilization” (Japan, Tokyo, 25-27 January 2016). Volume II. “Tokyo University Press”, 2016, p. 614-617.
13. Nərgiztəpədə Türk-avşar qəbiristanlığı // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, Bakı, 2015, № 1, s. 117-124. (müştərək).
14. Qarabağ arxeoloji abidələrinin tədqiqi (müstəqillik illərində) / Gəncə Avropa Gənclər Paytaxtı – 2016, “XXI əsrdə dünya elminin inteqrasiya prosesləri” gənclərin beynəlxalq elmi forumu, Gəncə, 10-14 oktyabr, 2016, s. 298-299.
15. Булавки из античного некрополя Галатепе / Qəbələ arxeologiyası, beynəlxalq elmi seminar. Qəbələ, 2017, s.130.

*Алиева Г. И.*

# ПАМЯТНИКИ АЗЕРБАЙДЖАНСКОЙ АЛБАНИИ АНТИЧНОГО ПЕРИОДА В НИЗМЕННОМ КАРАБАХЕ

## РЕЗЮМЕ

Диссертация посвящена археологическим исследованиям античных памятников Азербайджанской Албании, расположенных в Низменном Карабахе. Работа состоит из введения, трёх глав, заключения, списка использованной литературы и иллюстративного материала.

Во введении обоснована актуальность темы, изложены цель и задачи диссертации, хронологические рамки, степень изученности, теоретическая и методологическая основа исследования, отмечена её научная новизна и практическая значимость, а также апробация и структура работы.

Первая глава диссертации, под названием «История изучения античных памятников Низменного Карабаха» разделена на два параграфа. В первом параграфе дается историко-географической обзор исследуемой нами территории и рассматриваются источники и историография. Во втором параграфе прослеживаются основные этапы в истории изучения античных поселений и погребальных памятников Низменного Карабаха.

Во второй главе работы проведена типологическая классификация античных памятников Низменного Карабаха, в отдельности исследованы городские и сельские поселения, грунтовые и кувшинные погребения, изучены их характерные особенности. Здесь указана роль городов, расположенных на торговых путях, как административных, торговых и ремесленных центров. Также отмечается важное значение комплексного исследования памятников захоронения Низменного Карабаха для изучения погребальных обычаев древних албанцев.

В третьей главе, под названием «Анализ археологического материала» дается сравнительный анализ артефактов, обнаруженные из античных памятников Албании, расположенных на правобережье реки Кура. Данная глава разделена на шесть параграфов: орудия труда, оружие, стеклянные изделия, предметы украшения, монеты и керамические изделия. Анализ археологических материалов

подтверждает близкое сходство между материальной культурой Низменного Карабаха и левобережьем реки Кура, что позволяет автору охарактеризовать культурно-экономическую жизнь албанских племен в изучаемом регионе.

В заключении сформулированы основные выводы и обобщения проведенного исследования. Основываясь на исследованные памятники, автор приходит к выводу о том, что между реками Кура и Аракс, включая низменную и нагорную части Карабаха, в период античности на территории Азербайджанской Албании была сформирована единая общеалбанская культура.

*Aliyeva G.I.*

## THE ANCIENT MONUMENTS OF AZERBAIJANI ALBANIA IN THE LOWLAND KARABAKH

### SUMMARY

The dissertation is dedicated to the archeological researches of the ancient monuments of Azerbaijani Albania located in Lowland Karabakh. It consists of introduction, three chapters, conclusion, list of used literature and illustrative materials.

The introduction gives information about actuality of the topic, research goals and objectives, chronological frame, source database, level of topic research, scientific innovation, theoretical and practical significance, as well as the approbation and the structure of dissertation.

The first chapter of the dissertation entitled "The History of Learning of Ancient Monuments of Lowland Karabakh" is divided into two paragraphs. In the first paragraph, the history and geography of the area surveyed, the sources and historiography are investigated. The second paragraph provides a description of the history of ancient settlements and the grave monuments of Lowland Karabakh.

In the second chapter was conducted the typological classification of ancient monuments of Lowland Karabakh, urban and rural residential settlements, were individually investigated ground and pottery burials, and were studied their characteristic features. Albanian towns on trade routes played an important role as administrative, trade and craft centers during the reporting period. A complex study of the burial monuments of Lowland Karabakh play great importance in the study of burial customs of ancient Albanians.

Chapter III, "Analysis of Archaeological Materials," compares artifacts discovered from Albania's ancient monuments located on the right side of Kura river. This chapter is divided into six paragraphs: labor instruments, weapons, glassware, decorative items, metal coins and ceramics. Analysis of archaeological materials confirms the close similarity between the material culture of Lowland Karabakh and the left coast of the Kura river and allows the author to characterize the cultural and economic life of the Albanian tribes in researched region.

In the conclusion was obtained and summarized the results of the dissertation. Based on researched monuments, the author concludes that on the territory of Azerbaijani Albania between the Kura and Araz rivers - including the lowland and mountainous parts of Karabakh, in the ancient period has been formed a common Albanian national culture.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
Bakı ş., H.Cavid pr-ti 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

*На правах рукописи*

**АЛИЕВА ГЮЛАНА ИЛЬГАР ГЫЗЫ**

# ПАМЯТНИКИ АЗЕРБАЙДЖАНСКОЙ АЛБАНИИ АНТИЧНОГО ПЕРИОДА В НИЗМЕННОМ КАРАБАХЕ

5505.02 – Археология

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени доктора философии по истории

**БАКУ – 2018**